AZƏRBAYCAN ORDUSU

*Həzi Aslanov - 109*

# Həzi Aslanov böyük sərkərdə idi

*"N" hərbi hissəsində iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları general-mayoru Həzi Aslanovun xatirəsinə həsr edilmiş "Heç kim unudulmur, heç kim yaddan çıxmır" adlı tədbir keçirildi.*





Əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin və torpaqlarımızın suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Tədbirdə çıxış edən hərbi hissənin zabiti Mehman Kərimov qəhrəmanın həyat və döyüş yolundan söz açdı. "İkinci Dünya müharibəsinin ilk günlərindən döyüşlərdə fəal iştirak edən Həzi Aslanov Moskva ətrafındakı döyüşlərdə göstərdiyi igidliyə və komandanlığın tapşırığını ləyaqətlə yerinə yetirdiyinə görə "Qırmızı Ulduz" ordeni ilə təltif olunmuşdur. H.Aslanovun 55-ci əlahiddə tank polku feldmarşal Manşteynin tank ordusunun darmadağın edilməsində yaxından iştirak etmişdir. Onun 35-ci qvardiya tank briqadası Belarusu, Pribaltika respublikalarını azad etmək uğrundakı döyüşlərdə xüsusilə fərqlənmişdi. Müharibənin od-alovları içərisinə atılan qəhrəman həmyerlimizin komandanlıq etdiyi tank briqadası Donbas, Moskva, Xarkov, Stalinqrad, Taqanroq, Kursk və digər şəhərlərin faşizmdən azad olunmasında fəal iştirak etmişdir. Stalinqraddan Baltik sahillərinədək döyüş yolu keçən Həzi Aslanov Liepay rayonu yaxınlığındakı döyüşdə qəhrəmancasına həlak olmuşdur. Həzi Aslanov 34 yaşında Sovet İttifaqı Qəhrəmanı adına və general rütbəsinə layiq görülüb. İkinci Dünya müharibəsində şərəfli döyüş yolu keçmiş Həzi Aslanovun, eləcə də Azərbaycan övladlarının tarixi şücaətləri heç vaxt yaddaşlardan silinməyəcək, gənc nəsil üçün vətənpərvərlik nümunəsi olacaq. Azərbaycan xalqının yetirdiyi ən böyük sərkərdələrdən biri olan Həzi Aslanovun adı həmişə xalqımız, dövlətimiz tərəfindən əziz tutulub və hər zaman əziz tutulacaqdır. Tank qoşunları general-mayoru Həzi Aslanovun qəhrəmanlıq yolu hər kəsə örnəkdir".

Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin mədəni bədii şöbəsinin müdiri Gülxar Məmmədova çıxışında tank qoşunları general-mayoru H.Aslanovun bütün ömrünü Vətənin, onun azadlıq və şərəfi uğrunda mübarizəyə həsr edərək, gələcək nəsillərə örnək olacaq döyüş yolu keçdiyini vurğuladı. "Azərbaycan xalqının yetirdiyi ən böyük sərkərdələrdən biri olan Həzi Aslanovun adı həmişə qədirbilən xalqımız və dövlətimiz tərəfindən əziz tutulmuş və xatirəsi əbədiləşdirilmişdir. Xalqımızın ümummilli lideri Heydər Əliyev gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyə edilməsində Həzi Aslanovu həmişə nümunə göstərmiş və dəfələrlə qeyd etmişdir ki, Həzi Aslanov Böyük Vətən müharibəsində mərdliklə döyüşən Azərbaycan xalqının nümayəndələrindən ən görkəmlisidir. O, bu döyüşlərdə həlak olmuş, öz qəhrəmanlığı ilə Azərbaycan xalqının hansı yüksək mənəvi keyfiyyətlərə malik olduğunu dünyaya nümayiş etdirmişdir. Ulu Öndərin layiqli davamçısı, Ali Baş Komandan İlham Əliyev də ölkəmizin hərb tarixinə xüsusi önəm verir, şanlı sərkərdələrimizin adlarının əbədiləşdirilməsi üçün səylərini əsirgəmir."

Tədbir Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin yaradıcı kollektivinin çıxışları ilə sona çatdı.

**Baş leytenant**
**Orxan HÜSEYNLİ,**
**"Azərbaycan Ordusu"**